# Borcu qaytarmaqda çətinlik çəkənə möhlət verən və ya borcunu ona tamamilə əfv edən kəsi, Allah Qiyamət günü Öz ərşinin kölgəsi altına alacaq, həmin gün o kölgədən savayı sığınılacaq heç bir kölgə olmayacaq

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Borcu qaytarmaqda çətinlik çəkənə möhlət verən və ya borcunu ona tamamilə əfv edən kəsi, Allah Qiyamət günü Öz ərşinin kölgəsi altına alacaq, həmin gün o kölgədən savayı sığınılacaq heç bir kölgə olmayacaq".
[Səhih] [Ət-Tirmizi və Əhməd rəvayət ediblər]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, borcluya möhlət verən və ya ona borcunu bağışlayan kəsin mukafatı: Qiyamət günü günəşin insanların başları üzərinə yaxınlaşacağı, istiliyinin şiddətləndiyi bir vaxtda o kəsin Allahın ərşinin kölgəsi altında olmasıdır . (O gün) heç kim Allahın kölgəsindən başqa kölgə tapa bilməz.

https://sunnah.global/hadeeth/az/show/4186